# Təşəkkürnamə təqdim olunub

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində "ASAN müraciət" informasiya sisteminin fəaliyyəti ilə bağlı tədbir keçirilib. 2024-cü il ərzində rumları arasında əlaqələrin inkişafındakı xüsusi əhəmiyyətini, müraciətlərin və ehtiyacların operativ və innovativ üsullarla həll edildiyini diqqətə çatdıraraq "ASAN müraciət" informasiya sisteminin Prezident İlham Əliyevin 2020-ci il 21



həyata keçirilmiş fəaliyyətin yekunlarına həsr olunmuş tədbirdə çıxış edən Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə yaradılmış "ASAN xidmət"in fəaliyyətində vətəndaş məmnunluğunun hər zaman prioritet olduğunu, bu məqsədlə müasir texnologiyalardan istifadə edildiyini vurğulayıb. O, "ASAN müraciət" platformasının məhz vətəndaşlarla dövlət qu- avqust 2232 nömrəli Sərəncamı əsasında ictimai iştirakçılığın təmin edilməsi və elektron xidmətlərdən istifadə edərək vətəndaş müraciətlərinin operativ qaydada dövlət qurumlarına yönləndirilməsi məqsədilə yaradıldığını qeyd etmişdir. Sonda müraciətlərə baxılmasında fərqlənən bir neçə dövlət qurumuna o cümlədən Qəbələ Rayon İcra Hakimiyyətinə təşəkkürnamə təqdim olunmuşdur.

# Ailə dəyərlərini qoruyaq

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə "Ailə dəyərlərinin qorunmasında qadınların rolu" mövzusunda tədbir keçirilib. Rayon ictimaiyyətinin qadın nümayəndələri və olimpiyada qalibi olan qızların iştirak etdiyi tədbirdə çıxış edənlər ölkəmizdə ailə institutunun, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında, nəsildən-nəslə ötürülməsində, milli ideallara sadiq gənc nəslin yetişdirilməsində qadınlarımızın fədakar rolundan danışmış, bayram münasibətilə iştirakçıları təbrik etmişlər.



# Erkən nikaha yox deyək



Gənclərin İnkişaf və Karyera Mərkəzi Dağlıq Şirvan regional nümayəndəliyinin Qəbələ bölməsi tərəfindən "Erkən nikaha yox deyək" adlı tədbir keçirilib. Qəbələ rayon Heydər Əliyev Mərkəzinin, Uşaq və Ailələrə Dəstək Mərkəzinin, tarix-diyarşünaslıq muzeyinin, şəhər 2 saylı kitabxananın əməkdaşlarının və gənclərin iştirakı ilə keçirilən tədbirdə çıxış edənlər erkən nikahın fəsadlarından, keçirilən maarifləndirmə tədbirinin əhəmiyyətindən bəhs etmişlər. Sonda mövzu ilə bağlı videoçarx nümayiş olunmuşdur.

# Qardaşlaşmış şəhərlər

Azərbaycan Respublikasının Qəbələ şəhəri ilə Koreya Respublikasının Qyonqçu şəhəri arasında 2015-ci ildə Dostluq Münasibətlərinin qurulması haqqında imzalanmış Sazişə əsasən şəhərlərimiz arasında mədəni, idman, turizm, iqtisadi və sair sahələrdə əməkdaşlıq daha da dərinləşdirilmişdir. Qyonqçu şəhəri 2025-ci ildə keçiriləcək Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatına (APEC) üzv dövlətlərin İqtisadi Liderlər Sammitinə ev sahibliyi edəcək. Qyonqçu şəhərinə "APEC 2025 - KOREA"-nın keçirilməsində uğurlar arzulayırıq.

# Sağlamlıq həftəsi

Ümumdünya Böyrək Gününə həsr olunmuş "Böyrək sağlamlığı həftəsi" layihəsi çərçivəsində Qəbələ RMX-da bölgə əhalisinə paytaxtdan dəvət olunmuş uzman və ixtisaslı həkimlər tərəfindən tibbi xidmətlər göstərilib. 11-12 mart tarixlərində baş tutan tibbi müayinələrdə 967 vətəndaşa, o cümlədən müharibə iştirakçıları və şəhid ailələrinin üzvlərinə nevroloq, uroloq, ginekoloq, endokrinoloq, terapevt və pediatrlar tərəfindən 4.183 tibbi xidmət göstərilib və maarifləndirici söhbətlər aparılıb. Layihə çərçivəsində Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayon mərkəzi xəstəxanalarının həkimləri üçün böyrək xəstəliklərinin diaqnostikası və



müalicəsinə müasir yanaşma mövzusunda seminar keçirilib. Sonda layihədə uğurla iştirak edən həkim-mütəxəssislər TƏBİB tərəfindən təşəkkürnamə ilə təltif edilib.

# «Konstitusiya və Suverenlik İli»

Dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi, dövlət suverenliyinin daha da gücləndirilməsi məqsədi daşıyır

Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Bu qərar hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Suverenlik və dövlətçilik müstəqil dövlətlərin varlığını və inkişafını təmin edən əsas amillərdir. Bu anlayışlar təkcə dövlətin hüquqi və siyasi əsaslarını deyil, həm də milli kimliyini və birliyini ifadə edir.

Azərbaycan Respublikasında suverenlik və dövlətçilik prinsiplərinin möhkəmləndirilməsi müasir dövlət quruculuğu və xalqın rifahı üçün zəmin yaradır. Ölkəmizdə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi isə bu prinsiplərin həm tarixi əhəmiyyətini, həm də gələcəyə yönəlik strateji mahiyyətini daha da ön plana çıxarır.

Dövlətimizin müstəqillik tarixinin mühüm hadisələrindən olan əsas qanun məhz Ulu Öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində hazırlanmışdır. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə yol açmışdır. Əsas qanunda cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edilmişdir. Belə ki, Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, ümumbəşəri dəyərlərə sadiqlik və digər dəyərlər öz əksini tapmışdır. Ölkənin əsas qanununun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanan 1 noyabr 1996-cı il tarixli Fərmana əsasən hər il noyabrın 12-si ölkəmizdə "Konstitusiya Günü" kimi qeyd edilir. Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya qanunvericilik sisteminin əsasında durur, eyni zamanda ölkədə hüquqi və siyasi sabitliyin təminatı qismində çıxış edir. Həmçinin dövlət suverenliyinin əsas təminatçısı olmaqla, Konstitusiya normaları ictimai münasibətlərin inkişafında müəyyənlik amili qismində çıxış edir. Ölkə Konstitusiyası dövlət quruluşunun əsaslarını, hakimiyyətlərin bölünməsi prinsipini, hakimiyyət orqanlarının təşkili, səlahiyyətləri və fəaliyyət qaydalarını, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin hüquqi çərçivələrini müəyyən edir, insan hüquqları və azadlıqlarının müdafiəsi və təminatı ilə bağlı mexanizmləri tənzim edir.

Əsas Qanunun Preambulasında Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlər bəyan edilmişdir. Bu ülvi niyyətlər ümumilikdə Konstitusiyanın mütərəqqi dəyərlərini əks etdirir.

Sevindirici haldır ki, bu gün hər birimiz müasir müstəqil Azərbaycanın uğurlarından, regionda və dünyada söz sahibliyindən, sözünün imzası qədər əhəmiyyətli olmasından qürur hissi ilə söhbət açırıq. Azərbaycan xalqı bu gün əsrlər boyu arzusu ilə yaşadığı, mübarizə apardığı müstəqil, suveren, qalib dövlətə sahibdir. Bütün ölkə ərazisində konstitusiya quruluşumuz bərqərar edilib.

Azərbaycan özünü bölgənin ən güclü və qalib dövləti kimi təsdiqləyib. 2020-ci ilin payızında Ermənistanın təxribatlarına cavab olaraq başlayan Vətən müharibəsində Zəfəri və 2023-cü ilin sentyabrında uğurla həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar oldu. Dövlətimizin başçısı İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edildi. Beləliklə, sentyabrın 20-si Azərbaycan xalqının tarixinə hər il qürurla, iftixarla qeyd edəcəyi bayram günü kimi yazıldı. 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ilini qeyd edəcəyik. İnanırıq ki, "Konstitusiya və Suverenlik İli"miz dövlətimiz və xalqımız üçün yeni nailiyyətlər, sülh, əmin-amanlıq ili olacaq.

**Nərmin AĞAYEVA,**
**Qəbələ rayon prokurorunun köməkçisi,**
**II dərəcəli hüquqşünas.**